# "Axşam oxuyub, gündüz işləmək məni bərkitdi"

## Bahar Muradova: "Çılğın, maksimalist, hər şeyə öz prinsiplərindən yanaşan, heç kəsə güzəştə getməyən gənc olmuşam"



**Bu gün uşaqlığına tam mənada qayıda bilmədiyini deyir. Çünki geriyə yolların qarşısı bağlıdır, uşaqlığının, şıltaqlığının ilişib qaldığı Füzuli şəhəri işğal altındadır. Qəlbi Qarabağla döyünən müsahibimiz o dövrləri həyəcansız, hissiz xatırlaya bilmir. Milli Məclis sədrinin müavini Bahar Muradova uşaqlıq, gənclik illərinin çətin, ağrılı, sevincli, kədərli günlərini bizimlə bölüşdü...**

### "ATAM BİZİ OXUMAĞA HƏVƏSLƏNDİRİB"

B.Muradova Füzuli şəhərində dünyaya göz açıb. Martın 20-də - bahar bayramında doğulduğuna görə atası adını Bahar qoyub. Sadə, zəhmətkeş ailədə böyüyüb, boya-başa çatıb. Ailədə 9 uşaq olublar: 7 bacı, 2 qardaş. Atası orta təhsilli sadə zəhmət adamı, anası evdar qadın olub.

Çoxuşaqlı ailələrin əksəriyyəti kimi, çətinliklər onlardan da yan keçməyib. Amma bu çətinliklərin içərisində ailədə elmə, savada, biliyə həvəsləndirmə və təşviq işi yaxşı gedib. Həmsöhbətimiz bu işin başında atasının dayandığını və uşaqlarının hər birinə ayaq üstə durmaları, gələcəklərini təmin etmələri üçün təhsil almağı, savadlanmağı, bilikli olmağı aşıladığını deyir.

Orta təhsilini Xurşudbanu Natəvan adına Füzuli şəhər 3 saylı orta məktəbində alıb. Elə orta məktəb illərindən də Natəvan həmsöhbətimizin idealına çevrilib.

### "AİLƏDƏ QOYULMUŞ ÇƏRÇİVƏYƏ SIĞIŞMIRDIM"

Uşaqlıqdan bacıları ilə birlikdə iş-gücləri evdə analarına kömək etmək, biş-düş öyrənmək və dərslərini oxumaq olub: "Atam çox gözəl bağban idi. O, gününü ağaclara qulluq etməklə keçirər, mən də onun yanında olar, kömək edərdim. Bəlkə də onun mənim köməyimə ehtiyacı yox idi, amma yanında dayanmaqla bir növ atama dəstək verirdim. Həm də təbiətə hədsiz marağım var idi. Ağacları tumurcuğundan tanıyardım".

B.Muradova bütün çoxuşaqlı ailələr kimi onların da ailəsində möhkəm qayda-qanunların olduğunu deyir: "Bu qaydaqanunlar olmadan böyük kollektivi idarə etmək çətin idi. Özü də qaydalara ailədə hər kəs əməl etməli idi. Bəzi hallarda mən ailədə qoyulmuş çərçivəyə sığışmır, öz sözümü çəkinmədən deyir, mövqeyimi ortaya qoyurdum. Hansısa bir işi görmək istəmirdimsə, o işi görməyi özümə yaraşdırmırdımsa, kimin onu mənə buyurmasından asılı olmayaraq, yerinə yetirməzdim. Yaxud heysiyyətimə toxunan hər hansı bir sözü, münasibəti qəbul etməzdim. Məni əhatə edən mühitdəki çatışmazlıqları uşaq ağlımla qəbul etmirdim. Anlaya bilmirdim ki, niyə bizim küçələrimiz palçıqlı, məktəbimiz soyuq, şüşələri sınıq olmalıdır, idman dərsində günümüzü həyətdə keçirməklə başa vurmalıyıq. Məndə bu mühiti dəyişməyə güc olmadığından, bu mühitdən tez çıxmaq həvəsi yaranmışdı. Məktəbi tez bitirmək istəyirdim. Mənə elə gəlirdi ki, görəcəyim işlər burada deyil, buna görə də bu mühitdən tez çıxmalıyam".



### REJİSSOR OLMAQ İSTƏYİ

Buna görə də 8-ci sinfi tərifnamə ilə bitirib təhsilini Bakıda davam etdirməyə qərar verir: "Texnikum bitirənlərin universitetə daxil olmaq şansı daha böyük idi. Düşünürdüm ki, təhsilimi Mədəni-Maarif Texnikumunda davam etdirim, sonra sənədlərimi İncəsənət Universitetinin Rejissorluq fakültəsinə verim. Teatr rejissorluğu məni çəkirdi. Bunun da səbəbi İlyas Əfəndiyevlə bağlı idi. Uşaqlıqdan İlyas Əfəndiyevin əsərlərini çox sevirdim. Xüsusilə dram əsərlərini xoşlayır, radioda dinlədikcə, televiziyada izlədikcə, onun müsbət obrazlarının həyatını təsəvvür edir, özümü o obrazların arasında hiss edirdim. Bəlkə də Füzulidən tez çıxmaq istəməyimin bir səbəbi də məhz onun əsərlərindəki obrazların qarşısında duran hədəflər, bu obrazların mənə xoş gələn tərəfləri idi. Onlar ən çətin işlərin arxasınca gedir və bir sistemlə, çoxsaylı təbəqə ilə vuruşur və qalib çıxırdılar. Mən də romantik arzu ilə o obrazların içərisində olmaq istəyirdim və fikirləşirdim ki, rejissor olmalıyam".

### 15 YAŞINDA İNAD EDƏRƏK BAKIYA GƏLİR

Valideynləri isə 15 yaşlı qızcığazın nəinki rejissor olmaq arzularını gerçəkləşdirməsini, heç Bakıda təhsilini davam etdirməsini belə istəmirlər: "15 yaşımda Bakıya gəlməyim ailəmizdə müəyyən narahatlıqlar doğururdu. Buna görə də bu fikrə düşəndə bir neçə gün valideynlərimi yola gətirmək üçün xeyli səy göstərdim. Xoşluqla razılaşmadıqlarını görəndə, anama sakitcə dedim: "Özünüz bilin, əgər icazə verməsəniz, avtobusa əyləşib Bakıda ailə quran bacımın yanına gedəcəm, sonra texnikuma qəbul olacam". Valideynlərim israrlı olduğumu görüb könüllü şəkildə razılıq vermək məcburiyyətində qaldılar".

Amma Bakıda heç də planlaşdırdığı kimi Mədəni-Maarif Texnikumuna deyil, Bakı Yüngül Sənaye Texnikumuna daxil olur: "Əslində haranı bitirməyimin mənim üçün o qədər fərqi yox idi, bu təhsil pilləsinə tramplin kimi baxırdım. Bakıda texnikumda təhsil aldığım 3,5 il şəhər mühitinə öyrəşməyimə, çətinliklərin nədən ibarət olduğunu bilməyimə, ali məktəblərə daha yaxın olmağıma və ən əsası, həyat yolumun nədən ibarət olduğunu müəyyənləşdirməyimə kömək etdi. Rayonda uşaq təsəvvürləri ilə cızılan planlar şəhər mühitində dəyişdi. Belə ki, artıq Hüquq fakültəsində oxumaq və bu istiqamətdə irəliləmək istəyirdim".

Texnikumu fərqlənmə diplomu ilə bitirib dörd il sənədlərini Bakı Dövlət Universitetinin Hüquq fakültəsinə versə də, imtahan qiymətlərinin yaxşı olmasına rəğmən, bu fakültəyə qəbul ola bilmir: "O zaman Hüquqa daxil olmaq asan deyildi, cəmi 25 yer var idi və bu yerlərə ilk növbədə hərbi xidməti bitirənləri, bu sistemdə işləyənləri, əgər yer qalardısa, digərlərini qəbul edirdilər. Hüquq fakültəsinə qəbul olmaq üçün birmənalı olaraq bizim qarşımıza sədd qoyulmuşdu. Buna görə universitetin müəllimlərinin tövsiyyəsi ilə 5-ci il sənədlərimi Filologiya fakültəsinə verdim. Düşünürdüm ki, buranı bitirdikdən sonra ikinci ixtisas kimi Hüquq fakültəsinə daxil olacağam. Amma bu arzumu çox sonralar, 1996-cı ildə gerçəkləşdirdim, hüquq ixtisası üzrə də təhsil aldım".

### TİKİŞ FABRİKİNDƏ KEYFİYYƏT NƏZARƏTÇİSİ

Qeyd edək ki, B.Muradovanın ilk iş yeri Bakı 1 saylı Tikiş Fabriki olur. Yüngül Sənaye Texnikumunu bitirəndən sonra təyinatla sözügedən fabrikdə əmək fəaliyyətinə başlayır. Orada daxil olan məhsulların keyfiyyətinə nəzarət edir. Ancaq fabrikdə çox az müddətdə çalışır: "Fabrikə gələn günün sabahısı komsomol təşkilatını axtarıb tapdım. Təşkilatın işində yaxından iştirak etmək istədiyimi bildirdm. Qısa müddətdə komsomol təşkilatı katibinin müavini seçildim. "Komsomol projektoru" adlı divar qəzetini çıxarmağa başladım. Bildiyiniz kimi, yüngül sənaye müəssisəsində kifayət qədər nöqsanlar olur. Divar qəzetində o nöqsanları işıqlandırırdım. Buna görə fəaliyyətində nöqsanlı cəhəti olanlar məndən çəkinməyə başladılar. Bilirdilər ki, səhvləri görünən kimi divar qəzetində karikaturaları çıxacaq. Belə bir çılğın, maksimalist, hər şeyə özünün meyarlarından, prinsiplərindən yanaşan, heç kəsə güzəştə getməyən və həddən artıq mübariz gəncliyim var idi. Bu xarakter mənə çoxsaylı problemlər yaradırdı: bir tərəfdən məni irəli aparırdısa, digər tərəfdən məhdudiyyətlər yaradırdı".

### "ÖZ PALTARIMI ÖZÜM TİKİRDİM"

Millət vəkili Bakı Dövlət Universitetində təhsil ala-ala işləməli olur: "Axşamlar dərsə gedir, gündüzlər Azərbaycan Könüllü Kitabsevərlər Cəmiyyətində işləyirdim. Ailəmizin imkanları o qədər də yaxşı olmadığına görə özüm-özümü təmin etməyi və ailədən asılı olmamağı qarşıma məqsəd qoymuşdum. İşləyib nəinki özümü təmin edir, hətta ailəmə kömək edirdim. Sovet İttifaqının son dövrləri olduğundan qıtlıq idi. Adicə yağ, çay, qənd tapmaq asan deyildi. Texnikumda oxuyanda o məhsullar evdən gəlirdisə, sonra mən Bakıdakı imkanlarımdan istifadə edərək, onları evimizə göndərirdim. Hər dəfə də atam məni qınayır, özümə yaxşı baxmağı, o ərzaqlara ehtiyaclarının olmadığını deyərək, göndərməməyimi xahiş edirdi. Amma mən vəziyyəti bildiyimə görə onun sözünə baxmırdım. Onu da deyim ki, axşam oxuyub gündüz işləmək məni bərkitdi, müstəqil etdi. İndiyə kimi xatırlamıram ki, Yüngül Sənaye Texnikumunu bitirib işləyəndən sonra kimdənsə maddi yardım istəyim. Özümü müstəqil, güclü, güvəndə hiss edirdim".

### "XARİCİ ƏDƏBİYYATLA ARAM YOX İDİ"

İşləməklə yanaşı, dərslərini də yaxşı oxuyub: "Elə olmayıb ki, hansısa imtahandan kəsiləm. Bütün imtahanları öz gücümə verirdim. Çoxsaylı ədəbiyyat siyahısı verilirdi, biz o ədəbiyyatı oxumalı idik, üstəlik, oxuduqlarımızın qısa məzmununu dəftərə yazmalıydıq. Mənim kitabları oxumağa həm vaxtım yox idi, həm də, ümumiyyətlə, dərs kimi verilən ədəbiyyatı, xüsusilə xarici ədəbiyyatı oxumağa həvəsim olmurdu. Qrupumuzda Elmira adlı qız oxuyurdu. Elmira nəinki verilən ədəbiyyat siyahısındakı əsərləri oxuyur, hətta çox səliqə ilə qısa məzmununu yazardı. Nəzəri hissələri dərslikdən oxuyardım, əsərlərin məzmununu isə xahişimlə Elmira bir neçə cümlə ilə mənə danışardı. Qəribədir ki, mən imtahandan "əla" qiymət alıb çıxar, Elmira isə "yaxşı" alardı".

Elmi Şura diplom işini çox müvəffəqiyyətlə müdafiə edən B.Muradovanı aspiranturaya qəbul üçün tövsiyyə edir: "Amma mən getmədim. Çünki məqsədim Hüquq fakültəsinə daxil olmaq idi. Həm də 1980-ci illərdə filologiyada oxuduğum vaxt Azərbaycanın siyasi həyatında çox ciddi hadisələr baş verdi. Artıq mən ölkədəki ictimai-siyasi mühitin içərisində idim və siyasət məni daha çox çəkirdi. Hadisələrin ən qaynar nöqtəsində iştirak etmək arzusundaydım və edirdim. Beləcə, siyasət arenasına gəlməyimin əsası o vaxtdan qoyuldu".

### "QIZLAR CƏSARƏTLİ OLSUNLAR"

Sonda millət vəkili həyatda öz yerlərini tuta bilmələri üçün gənc qızlarımıza məsləhətlərini də verdi: "Gənc qızlarımıza cəsarətli olmağı və özlərinə inanmağı arzulayıram. Özünə güvən, öz iradəsinin əsas olduğuna və səni bir yerlərə aparacağına inam çox vacibdir. İstənilən sahədə kişilər daha çox olduğundan onların arasında rəqabət güclüdür. Əgər qadın doğrudan da ortaya gözəçarpan bir fəaliyyət qoyur, öz işinə bir balaca məsuliyyətlə yanaşırsa, bu, o dəqiqə nəzərə çarpır. Görürsən ki, səni seçirlər, dəyərləndirirlər, bir mərtəbədən digərinə keçirdilər, ən azı hörmət, nüfuz sahibi oldun, dövlət mükafatı aldın. Mən şəxsən öz həyatımda belə görmüşəm və hansısa vəzifədə irəli çəkiləndə, təqdimatım seçkili orqana veriləndə, mükafatla təltif ediləndə hər zaman təəccüblənmişəm. Düşünmüşəm ki, doğrudanmı gördüyüm iş buna layiqdir. Amma bir tərəfdən də bunu avans kimi qəbul etmişəm ki, bu, bizi həvəsləndirmək, Azərbaycan qadınını bu işlərə təşviq etmək üçündür. Bu, həm də dövlətin siyasətidir, Heydər Əliyevin də zamanında belə olub, İlham Əliyevin də zamanında belədir. Buna görə də gənc qızlarımıza tövsiyyəm budur ki, fəal olsunlar, özlərinə inansınlar. İnansınlar ki, onların fəaliyyəti mütləq dəyərləndiriləcək".

**Lalə MUSAQIZI**